# Qələbə xəbərinin Vətəndən uzaqda əks-sədası

## "Hər bir qarışına bələd olduğum o gözəlliklərin azad olduğunu elə böyük sevinclə qarşıladım ki..."

**Müzəffər Azərbaycan Ordusunun Ermənistanla sentyabrın 27-dən bəri davam edən müharibədə qələbə qazanması, torpaqlarımızın işğaldan azad olunması xaricdə yaşayan soydaşlarımızın hədsiz sevincinə səbəb olub. Onlar yaşadıqları ölkələrdə haqq savaşımıza dəstək göstərməkdə davam edirlər.**

### "BİZ DƏ BURDA VURUŞURUQ"

**Kanadanın Ontario vilayətinin Toronto şəhərində yaşayan soydaşımız Yeganə Cəfərova** bildirir ki, qələbə xəbəri alan günü həmvətənlərimiz paytaxt Ottavaya yürüş ediblər: "Biz hamımız avtobusda idik. Yürüşümüzün məqsədi Şuşanın alınmasını və Bayraq




gününü qeyd etmək idi. Həm də bizim əleyhimizə qətnamə çıxaran bəzi deputat və senatorlara etirazımızı bildirmək istəyirdik. Burda bir yunan senator "Artsax"ın respublika kimi tanınması üçün qətnamə hazırlamışdı. Kvebek əyalətinin Monreal şəhərinin yaxınlığında Laval adlı şəhərin meri də keçən həftə "Artsax"ı respublika kimi qəbul etmişdi. Buna etiraz olaraq biz Ottavaya getdik və Parlamentin qarşısında möhtəşəm bir tədbir keçirdik. Həmin tədbirdə mənim də çıxışım oldu". Y.Cəfərova deyir ki, Torontoya qayıdarkən yolda ordumuzun qələbə xəbərini eşidiblər: "Bəziləri hadisələri düzgün anlamadılar. Mən təfərrüatı izah etdim. Mənə zəng vurub ağlayaraq təbrik edən həmvətənlərim vardı. Biz göz yaşlarımızı saxlaya bilmədik. "Qarabağ" mahnısının sədaları altında rəqs elədik, oxuduq. Torontoya çatanda hamı "Yallı" getdi. Sevincimizin həddi-hüdudu yoxdur. Bəsdir qan töküldü. Bəsdir əzildik. 28 ildə çəkdiyimiz əzabların sayı-hesabı olmadı. Hər gün ailələrimizə şəhid gəldi. İnanıram ki, bütün bunlara son qoyuldu. Biz hadisələrə düzgün qiymət verməyi bacarırıq. Hər zaman ölkəmizin, prezidentimizin yanındayıq. Burda yaşayan azərbaycanlılar yaratdığımız şəbəkənin ətrafında yığışaraq işimizi davam etdirir". Soydaşımız bildirir ki, bundan sonra da Azərbaycanın haqq səsini dünyaya yaymaq üçün fəaliyyətlərini davam etdirəcəklər: "Bundan sonra da Vətənimizə yaxından kömək edəcəyik. Ölkəmizlə bağlı təbliğatı genişləndirəcəyik". Şuşanın alınmasından ayrıca danışan Y.Cəfərova qeyd edir ki, Qarabağın incisinin işğaldan azad edilməsi bütün həmvətənlərimizin coşqusuna səbəb olub: "Ottavada yürüşə qatılanda fikirləşirdik ki, Şuşa həmin gün alınacaq. Belə də oldu. Bizim yürüşümüz həmin günə təsadüf etdi. Biz yürüşdə şüarlarımızı səsləndirdik. Şuşanın alınmasını bayram etdik. Parlamentin qarşısında səsimizi ucaltdıq. Onlar agah oldular". Y.Cəfərova bildirir ki, sentyabrın 27-dən - müharibə başlayan gündən Kanadada yaşayan soydaşlarımız da ayaqdadır: " Biz ay yarımdır - müharibə başlayan gündən yatmamışıq. Ordumuz orda vuruşubsa, biz də burda mətbuatda, sosial mediada vuruşmuşuq, hələ də mübarizəmiz davam edir. Mən burda yaranan qadın cəmiyyətinin təsisçilərindən biriyəm. Bəzi şəhid ailələrinə, ailə başçısı həlak olan ailələrə, evlərini itirən ailələrə yardım, isti paltarlar hazırlamışıq. Həmin paketlər bu günlərdə Azərbaycana yola salınacaq. Bizim fəaliyyətimiz dayanmır. Ermənilər burda kök salıb öz lobbilərini yaradıblar. Bizim də mübarizə aparan təşkilatlarımız əvvəl olub, amma indi biz lobbiçiliyi daha da inkişaf etdiririk. Bizi dəstəkləyən ölkələrin mətbuat orqanları ilə, başqa icmalarla işləyəcəyik. Qısa müddət ərzində az iş görülməyib. Çalışacağıq ki, Qarabağımızın hər bir guşəsində dədə-baba evimizi bərpa edək. Vaxtilə mənim babamın Şuşada torpaqları olub. Uşaqlığımın böyük bir xatirəsi Qarabağla bağlıdır. Mən çox sevincliyəm. Hər bir qarışına bələd olduğum o gözəlliklərin azad olduğunu elə böyük sevinclə qarşıladım ki... Bəziləri Rusiyanın orda olmasında narahatdır. Amma mən narahat deyiləm. İnşallah, hadisələr bizim düşündüyümüz kimi davam edəcək. O torpaqlarda azərbaycanlılar yaşayacaqsa, bundan böyük sevinc ola bilməz".

### "NƏHAYƏT Kİ, BU HƏSRƏT BİTDİ..."

**"Ana vətən" Niderland Azərbaycanlı Qadınlar Birliyinin sədri Maisə Ağamirzəyev**a (Gündoğdu) qələbə



münasibətilə bütün xalqımızı, dünyada yaşayan azərbaycanlıları təbrik edir: "Nəhayət ki, bu həsrət bitdi. Bu müddətdə mən Azərbaycanın keçdiyi tarixi yolu gördüm. 20 Yanvarı, Azərbaycanın müstəqilliyini bərpa etməsini, qəhrəmanlarımızı gördüm. Qarabağ həsrəti ilə yaşadım. Nəhayət Azərbaycanın qələbəsini gördük. Xoşbəxtəm ki, bu tarixi yaşayan insanlardanam. Bu illər ərzində ölkəmiz bir çox iklərə imza atdı. Pillə-pillə irəlilədi, inkişaf etdi, dünyada tanındı. Dünya dövlətləri bizimlə hesablaşdı". Diaspor rəhbəri bildirir ki,

Hollandiyada yaşayan azərbaycanlılar da qələbə münasibətilə sevinirlər: "Artıq Qarabağımız alınıb, işğaldan azad edilib. Mənim anam şuşalı, atam ağdamlıdır. Oradakı evimiz yadımdadır. İnana bilmirəm ki, evimizə qayıdacağıq!"

### "HAMIMIZ ÇOX QÜRURLUYUQ"

**ABŞ-ın Texas ştatında, Hyuston şəhərində yaşayan, "Schlumberger" Neft Şirkətinin Avropa və Yaxın Şərq ölkələri üzrə departamentinin rəhbəri Vüsal Nəzərov** deyir ki, yaşadığı Hyuston şəhərində Azər-



baycan icması koordinasiya olunmuş şəkildə fəaliyyətdədir: "Texas ştatının Hyuston şəhərində Azərbaycanlıların 5 min nəfərdən çox icması yaşayır. Müharibə başladığı andan etibarən hamının ürəyi Vətənlə döyünür və başda özüm olmaqla, hər kəs xaricdə yaşamağımıza baxmayaraq Ali Baş Komandanın səfərbərlik əmrinin gözləyirik. Təbliğat məsələsi ilə bağlı onu deyə bilərəm ki, işlər burada parelel və koordinasiya olunmuş şəkildə aparılır. Oktyabr ayının 28-də Texasda və digər ştatlarda yaşayan azərbaycanlılar diaspora rəhbərliyinin təşkilatçılığı ilə Hyuston şəhər meriyası önündə "Qarabağa Azadlıq!", "Erməni terrorçuluğuna son soyun!", "Gəncə üçün dua et!" "Bərdə üçün susma!" şüarları altında icazəli aksiya təşkil etdi. Bu aksiya vasitəsilə Azərbaycan reallıqları işğal olunmuş torpaqlarımız və terrora məruz qalmış şəhərlər barədə yerli əhaliyə məlumatlar verildi. Bundan əlavə, bir qrup insanlarımız, özəlliklə gənclər müasir kommunikasiya vasitələrindən istifadə etməklə sosial media üzərindən Amerika cəmiyyətini məlumatlandırmağa və real faktlar əsasında Ermənistanın işğalçı hərəkəti barədə müəyyən anlayışa sahib olmalarını təmin edirlər. Digər qrup aktiv vətənpərvər fəallar federal və Texas ştatının hökumət rəsmilərinə elektron müraciətlər və zənglər ünvanlayaraq erməni yalanlarına inanmamağa və yaranmış konfliktdə haqlı tərəfin - Azərbaycanın yanında olmağa səsləyirlər". V.Nəzərov bildirir ki, yerli əhalinin böyük əksəriyyətinin regional və yaranmış konfliktlə bağlı heç bir məlumatı yoxdur: "Əslində bu, bizim işlərimizi daha da çətinləşdirir. Çünki hansı tərəf özünü birinci təqdim edərsə, o toplum da əksər hallarda heç bir araşdırma etmədən həmin tərəfin mövqeyini dəstəkləyir. Təəssüf ki, erməni lobbisi də Amerikada güclüdür və bu da başadüşüləndir. Tarix boyu dövləti, vətəni, torpağı olmayan bir xalq daima yaşadığı ölkələrdə özünü müdafiə psixologiyası ilə sıx birləşir. Eyni zamanda, ermənilər çox yaxşı bilirlər ki, bizdən fərqli olaraq onlar öz dövlətlərinə arxayın ola bilməzlər və Ermənistan dövləti xaricdə yaşayan vətəndaşlarının maraqlarını qoruyacaq gücə sahib deyil. Lakin zaman keçdikcə burada yaşayan azərbaycanlılar öz mövqelərini daha yaxşı ortaya qoyur və yerli icmalarla qeyri-hökumət təşkilatları ilə əlaqələr quraraq ölkəmizin təbliğatını təşkil edirlər". V.Nəzərov bildirir ki, Azərbaycan icması informasiya müharibəsində fəallıq göstərərək aksiyalar keçirir, sosial media üzərindən kompaniyalar təşkil etmək və hökumət rəsmilərinə müraciətlər ünvanlamaqla mübarizə aparırlar: "Həmçinin diaspora ilə sıx əlaqədəyik və keçirilən hər bir tədbirdə maksimum şəkildə iştirak edərək dövlətimizə, millətimizə dəstək göstəririk. Texasda və digər ştatlarda aksiyalar keçirilib. Uzaq məsafələrə rəğmən bannerlər, sloqonlar Amerika cəmiyyətini maraqlandıracaq şəkildə xüsusi diqqətlə seçilib hazırlanıb. Minlərlə "Qarabağ Azərbaycandır" şüarlı maskalar, köynəklər və digər promosiya məhsulları buradakı vətənpərvər soydaşlarımızın maliyyə dəstəkləri əsasında ərsəyə gətirilib və yerli amerikalılara paylanılıb. Texas, Kaliforniya, Oklahoma və digər aparıcı ştatların senatorlarına, konqres üzvlərinə yerli idarəetmə qurumlarına rəsmi müraciət etməklə Azərbaycanın haqlı mübarizəsinə dəstək olmağa çağırıb. Maliyyə yardımları toplanılmaqla ordumuza və şəhid ailələrinə dəstək olunub. Vətən müharibəsi xaricdə yaşayan bütün azərbaycanlıları sanki ayıltdı və soydaşlarımızı Vətən, dövlət, bayraq və Qarabağ ətrafında tarixdə heç bir zaman görülmədiyi şəkildə sıx birləşdirdi. Demək olar ki, özünü azərbaycanlı hesab edən xaricdə yaşayan hər kəs bütün səylərini Ordumuza, xalqımıza maddi və mənəvi dəstək kompaniyaları üzərində cəmləşdirib. Mübarizəmiz davam edir". V.Nəzərov qələbə xəbərini böyük sevinclə qarşıladıqlarını deyir: "Hamımız qalibiyyətə görə çox qürurlu və sevincliyik. Bir yerə toplaşıb sevincimizi bölüşürük. Qələbəmizi müzəffər Azərbaycan ordusuna borcluyuq. Allan Vətən uğrunda canından keçən şəhidlərimizə rəhmət eləsin, qazilərimizə isə şəfa versin!"

**Təranə Məhərrəmova**